AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı* |
| Qəbul edildiyi tarix | *26.02.2015* |
| Qeydiyyat nömrəsi | *11/2* |
| Adı | *"Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda dəyişiklik edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *07.03.2015* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.060.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *23201502260112* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *06.03.2015* |

Bank sektoruna zəruri likvidlik dəstəyi vermək məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2015-ci il 26 fevral tarixli 11/1 nömrəli qərarına əsasən bankların bütün depozitləri üzrə məcburi ehtiyat norması 2%-dən 0.5%-ə endirilmişdir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci və 32.1-ci maddələrinə əsasən

**QƏRARA ALIR:**

1. "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"nda dəyişiklik edilsin (əlavə olunur).
2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Sədr** **Elman Rüstəmov**

**“Təsdiq edilmişdir”**
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 11/2
“26” fevral 2015-ci il

**“Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası”nda dəyişiklik**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2012-ci il 10 iyul tarixli 16/1 nömrəli Qərarı ilə təsdiq olunmuş “Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası”nın 2.2-ci bəndində “2 (iki)” sözləri “0.5 (sıfır tam onda beş)” sözləri ilə əvəz edilsin.